**Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" 2008-ci il 21 noyabr tarixli 24 nömrəli, "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2009-cu il 10 iyul tarixli 121 nömrəli, "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2012-ci il 9 iyul tarixli 680 nömrəli, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2013-cü il 8 iyul tarixli 939 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin və "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 21 noyabr tarixli 24 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, 11, maddə 979; 2009, 10, maddə 773; 2011, 2, maddə 85; 2017, 7, maddə 1358) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının Nizamnaməsi"nin 11.9-cu bəndi aşağıdakı redaksiyada verilsin:

"11.9. Akademiyanın işçilərinə elmi və elmi-pedaqoji fəaliyyətə görə elmi adların verilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"yə uyğun olaraq vəsatət qaldırır;".

2. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 10 iyul tarixli 121 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, 7, maddə 524; 2011, 2, maddə 85; 2013, 6, maddə 632; 2015, 2, maddə 126; 2016, 2 (II kitab), maddə 238, 9, maddə 1478; 2017, 5, maddə 784, 7, maddə 1359; 2019, 3, maddə 401) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasının Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.16.7-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.16.7. Akademiyanın işçilərinə elmi və elmi-pedaqoji fəaliyyətə görə elmi adların verilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"yə uyğun olaraq vəsatət qaldırır;";

2.2. 5.16.8-ci yarımbənddə "təsdiq" sözü "müəyyən" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 9 iyul tarixli 680 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, 7, maddə 689; 2013, 6, maddə 633; 2016, 11, maddə 1803; 2017, 5, maddələr 786, 802, 7, maddə 1362; 2019, 3, maddə 401) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin Nizamnaməsi"nin 4.17.7-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"4.17.7. əməkdaşlara elmi və elmi-pedaqoji fəaliyyətə görə elmi adların verilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"yə uyğun olaraq vəsatət qaldırır;".

4. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 939 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, 7, maddə 804; 2016, 11, maddə 1803; 2017, 5, maddələr 787, 802, 7, maddə 1363; 2018, 4, maddə 698; 2019, 3, maddə 401) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4.15.7-ci yarımbənddə "elmi-pedaqoji işçilərinə" sözləri "işçilərinə elmi və elmi-pedaqoji fəaliyyətə görə" sözləri ilə əvəz edilsin;

4.2. 4.15.8-ci yarımbənddə "təsdiq" sözü "müəyyən" sözü ilə əvəz edilsin;

4.3. 6.6-cı bənddə "2003-cü il 21 fevral tarixli 857 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələrin və elmi adların verilməsi qaydaları haqqında Əsasnamə"yə" sözləri "2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"yə və "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"yə" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 fevral 2020-ci il
948